Ədalət.2017.-11 fevral.S.16.



Musa Xanbabazadə

# "Məmləkətə məktublar" silsiləsindən tək beytlər

Məmləkətim!
Şah babamız Xətainin zamanında 2 milyon 800 min kilometrlik bir yurd idin,
Torpağına əyri-üyrü baxanları diri-diri parçalayan bir qurd idin.
***

Məmləkətim!
Sən tanrıdan yandırılan bir çıraqsan, mən oduna olası pərvanəyəm,
Sən vəfadar bir Leylisən, mən də sənsiz çöllər gəzən Məcnun misal divanəyəm.
***

Məmləkətim!
Gürşadsız, şəlaləsiz, ildırımsız ruhlarda yalnız köləlik yaşar,
El-obada fağırlıq, məzlumluq və susqunluq həddini aşar-daşar.
***

Məmləkətim!
Vallah gəldi-gedərdi ala-çiy söz, yalan söz, üzüqara oğru söz,
Təkcə əbədi yaşar minləri haqq yoluna qoşa bilən doğru söz.
***

Məmləkətim!
Dişimlə doğrayıram paxılların çevrəmə toxuduğu torları,
Tapdalayıb keçirəm yollarıma döşənən naxır-naxır korları.
***

Məmləkətim!
Necə unutmaq olar Kəlbəcəri, Şuşanı qanda üzdürənləri,
Bizim qız-gəlinləri lüt-üryan soyundurub yolda gəzdirənləri?!

Məmləkətim!
Alınsın stolundan humanitar yardımla villa-qəsr tikənlər,
Qaçqının və köçkünün ömür-gününü göy əskiyə bükənlər.
***

Məmləkətim!
Erməni tülküsünün batar səsi-sədası,
Arxa-dayaq durmasa ona Şimal ayısı.
***

Məmləkətim!
Bəzən bizi çərlədir vəzifəli bir həpənd -
"Yoxla" "hə" arasında can çəkişən küt ləvənd.

Məmləkətim!
Sadə bir həqiqəti eşitsin ağılsızlar:
Bu gün xalqı sızladan bir sabah özü sızlar

Məmləkətim!
Rüşvətin dadı-tamı, möcüzəsi, qüdrəti
Dağ boyda kişiləri şir ikən quzu etdi.

Məmləkətim!
Aprel savaşlarında hər bir əsgər yağılara qan udduran boz qurd idi,
Qorxubilməz, gülləbatmaz, dizqatlanmaz addımlayan bu yurd idi.

Məmləkətim!
Hər bir şəhid məzarı bir istiqlal səngəri,
Azadlığın və sülhün döyüşkən, mərd əsgəri

Məmləkətim!
Dağlarımı düz etdilər, aranımı şumladılar,
Mən bağırmaq istər ikən tez ağzımı mumladılar

Məmləkətim!
İki min manat ilə mən dolana bilmirəm, - haray çəkir deputat,
Heç bir düşünürmü bəs yüz əlli manat ilə necə dolanır elat?!

Məmləkətim!
Baş kəsir, qol sındırır, kürək qancır eləyir sapı bizdən baltalar,
Vəzifələr başında bu ağzı küt baltalar bizi yaman baltalar

Məmləkətim!
Asılıbdır beşiklərin başı üstdə rüşvətin qorxunc, kölgəsi,
Görən, haçan təmizlənər üst-başlardan rüşvətin qara ləkəsi?!

Məmləkətim!
Görürəm göylərində qapqaraca buludlar, kor zülmətlər əriyir,
Sənə dirsək göstərən haçadilli gürzələr, əjdahalar gəbərir...